ƏN BÖYÜK FUTBOL ULDUZLARI

# RONALDİNYO QAUŞONUN

QEYRİ-RƏSMİ HEKAYƏSİ

LYUK
PATON



qanun nəşriyyatı

# RONALDINHO GAÚCHO

THE UNOFFICIAL STORY

WRITTEN BY
LUKE PATON

*“Ən böyük futbol ulduzları”* seriyası dünya futbolunun əfsanəvi və məşhur futbolçularının maraqlı həyat yolundan bəhs edir. Dünya üzrə ən istedadlı oyunçuları bir araya gətirən bu seriya onları futbol ulduzu zirvəsinə aparan parklarda, küçələrdə futbol oynamaqdan tutmuş ən böyük meydanlarda və ən nüfuzlu liqalarda azarkeşlərlə dolu tribunalar qarşısında çıxış etməyə qədər əhatə edən həyat yollarını təsvir edir. Bu kitab Ronaldinyonu əfsanəyə çevirən əzmkarlıq, ehtiras və futbol sevgisinin tərənnümüdür.

**LUKE PATON**
**Ronaldinho Gaúcho  The unofficial story**
**LYUK PATON**
**Ronaldinyo Qauşonun qeyri-rəsmi hekayəsi**
Bakı, Qanun Nəşriyyatı, 2025, 112 səh.

Janr: uşaq ədəbiyyatı, idman,
bioqrafiya, məşhur şəxsiyyətlər
Yaş qrupu: 7+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 23.01.2025

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| İngilis dilindən tərcümə etdi: | Gül Təkin |
| Korrektor: | Aytən Səadəti |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-586-62-6

© Qanun Nəşriyyatı, 2025
Copyright © 2024
Inside illustrations copyright © 2024
Cover illustrations copyright © 2024
Published under licence from Sweet Cherry Publishing Limited.

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri
“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”
Azərbaycan Respublikasının Qanununa ziddir.

# MÜNDƏRİCAT

1. Braziliyadan olan oğlan .......... 7
2. Ronaldinyonun yüksəlişi .......... 17
3. Ronni ad-san qazanır ................ 27
4. 2002-ci il Dünya Kuboku ....... 35
5. Avropa kralı ............................... 51
6. O Bruxo (Sehrbaz).................... 63
7. "Barselona"nın yüksəlişi .......... 73
8. Kapitan Ronaldinyo.................. 85
9. Çempionlar ................................ 91
10. Ronninin irsi ............................103

# 1

# BRAZİLİYADAN OLAN OĞLAN

"Ronaldo, atana de, yeməyinin vaxtıdır" – dedi Migelina. Çoxları beşyaşlı Ronaldo de Assis Moreyranı Ronaldinyo və ya Ronni kimi tanıyırdı – lakin anası Migelina uşağı həmişə onun əsl adı ilə çağırırdı.

Ronaldinyonun atası Juan küçədəki barda bilyard oynayırdı. Amma Migelina bilirdi ki, kiçik oğlu atasını çağırmağa

qaça-qaça gedəcək. Hər halda yolboyu futbol bacarıqlarını yaxşıca məşq etmək üçün əla fürsət yaranırdı!

Balaca Ronaldinyo atasının arxasınca getməyi oyuna çevirmişdi. Evdən atasının olduğu bara qədər topu ayağının ucunda çiləyə-çiləyə gedirdi. Top yerə düşsəydi, oyunu uduzurdu.

“Ana deyir ki, yemək hazırdır” – Ronaldinyo bara girib atasına dedi. “De ki, indi gəlirəm” – atası cavab verdi.

Beləliklə, Ronaldinyo eyni üsulla yolboyunca top çiləyə-çiləyə evə qayıtdı.

“Atam dedi, indi gəlir” – anasına dedi.



“Get de ki, onu gözləməyəcəyəm” – Migelina cavab verdi.

Və Ronaldinyo yenə yolboyu top çiləyə-çiləyə yenə bara qayıtdı.

Bu, hər gün baş verirdi və hər gün Ronaldinyo topu getdikcə daha yaxşı çiləyirdi.

Ronaldinyonun ailəsi Braziliyanın Porto-Aleqri şəhərində yaşayırdı. Onlar varlı deyildilər. Onun anası paltar yuyan idi, atası isə gəmiqayırma zavodunda işləyirdi. Onlar uşaqlarını dolandırmaq üçün çox çalışırdılar, lakin həm də həyatın hər anından həzz almağı bacarırdılar.

Ronaldinyonun ən sevdiyi gün bazar günü idi. Hər bazar, atası yerli icma meydançasında futbol oynayırdı. Ronaldinyo böyüklərlə oynamaq üçün hələ çox kiçik idi, ona görə də meydanın kənarında öz oyunu ilə məşğul olurdu. Balaca dostları, əmisi-dayısı uşaqları da həmişə onunla oynayırdılar.

Hər dəfə böyüklərin oyununda kimsə qol vuranda, Ronaldinyo və bütün balacalar meydana qaçıb qol vuran oyunçunu qucaqlayır və təbrik edirdilər. Həmin günləri sevinc və gülüşlə dolu keçirdi!

Oyundan sonra, Juan bütün ailə və dostları üçün barbekü bişirirdi. Hamı doyunca yeyir, mahnılar oxuyur, musiqi alətlərində ifa edir və samba rəqsi oynayırdılar. Həftə boyu işləyirdilər ki, bu gün istirahət etsinlər. Hər bazar günü bayram kimi keçirdi!

Ronaldinyo dünyada hər kəsdən çox atasına heyran idi. Atası onun üçün nümunə idi. Atasından əməksevərliklə istirahəti birləşdirə bilməyi öyrəndi. Amma Juanın Ronaldinyoya öyrətdiyi ən vacib dərs futbol oynamaq idi.

Juan ona necə fəndlər etməyi, topu havada çiləməyi və həmişə üzündə təbəssümlə oynamağı öyrədirdi. “Sevinclə oyna” – Juan Ronaldinyoya deyirdi. “Azad oyna. Sadəcə top ilə oyna”.

Juanın ən sevimli sözlərindən biri də bu idi: “Həyatda ən yaxşı şey toyuq şorbası və təvazökarlıqdır”. Ronaldinyo bunun mənasını yaxşı anlamasa da, bu sözlərin hər kəsdən üstün olmadığını düşünməklə əlaqəli olduğunu bilirdi.

Juanın sevimli futbol komandası Braziliya liqasının birinci divizionunda çıxış edən yerli komanda “Qremio” idi. O, bu kluba azarkeşlik edirdi. Ronaldinyo hərdən atasının oyunun nəticələrinə görə ağladığını da görürdü!

Ronaldinyo böyüyüb bu klubda oynamağı arzulayırdı. Heç kim də buna şübhə

etmirdi. Hamı onun topla oynadıqca ətrafına necə sevinc yaydığını, bu işdə xüsusi istedadı olduğunu görürdü. Hələ yeddi yaşı olanda "Qremio"nun gənclər akademiyasına qəbul edildi.

Ancaq Ronaldinyo ailədə yeganə futbolçu deyildi. Ondan on yaş böyük olan qardaşı Assis də on altı yaşından "Qremio"nun əsas komandasında oynamağa başlamışdı.

Bu, ailə üçün tamamilə yeni bir həyatın başlanğıcı oldu. Assis ilə bağlanmış müqaviləyə əsasən "Qremio" ona şəhərin başqa bir hissəsində yeni bir ev verdi. Bu ev bütün ailənin yaşaması üçün kifayət qədər böyük idi və hətta hovuzu da vardı! Nəhayət

ki, ailənin maddi problemləri sona çatmışdı.

Ronaldinyo heç vaxt bu qədər xoşbəxt olmamışdı. O, həyatı və ailəsini sevirdi. Futbol artıq ona böyük sevinc gətirmişdi. O, oynamağa davam etsə, kim bilir, başqa nələr baş verəcəkdi?

"Assis yaxşı oynayır" – Juan insanlara deyirdi, – "amma kiçik qardaşı başqa aləmdir".

Gənc Ronaldinyo bu tərifi eşidəndə sevincindən uçurdu. Assis "Qremio"nun ulduzu idi, 1988, 1989 və 1990-cı illərdə ardıcıl olaraq üç dəfə komandanın ştat çempionluğunu qazanmasına kömək etmişdi. Ronaldinyo bununla necə rəqabət aparacaqdı?

Juan Assis ilə fəxr edirdi. “Uğur qazandın” – o, Assisə dedi. – “İndi qardaşınla maraqlanmalıyıq”.

Təəssüf ki, yaxşı günün ömrü az oldu. Assisin on səkkizinci ad günündə ailə evdə böyük qonaqlıq təşkil etdi. Dünyanın müxtəlif yerlərindən dostlar və qohumlar gəldi, hamı rəqs edib əyləndi. Ronaldinyo səhər futbol oynamağa getmişdi və evə qonaqlardan sonra gəldi.

Amma evə çatan kimi nəyinsə yolunda getmədiyini hiss etdi. Adətən, futboldan evə qayıdanda, anası mətbəxdə olur, gülür və əylənirdi. Xüsusilə də bazar gününün barbekü qonaqlıqlarında.

Amma bu gün anası ağlayırdı. Nə baş vermişdi?

Ronaldinyo böyük qardaşını tapdı. Assis onun çiynindən tutdu və rahat danışmaq üçün hamama apardı.

"Ata qəzaya düşüb" – Assis dedi. "Biz onu itirdik, Ronni".

Ronaldinyo heç nə başa düşmədi. "Bu nə deməkdir?" – o soruşdu. "O nə vaxt qayıdacaq? Necə ola bilər ki, ata artıq yoxdur?"

Juan həyətdəki hovuzda ürəktutmasından boğularaq ölmüşdü. Heç kim onu xilas edə bilməmişdi.

Ronaldinyo bunu yaxşı başa düşmürdü. O, bu xəbəri anlamaq üçün hələ kiçik idi. Necə yəni daha atasını görə bilməyəcəkdi? Buna inanmağı gəlmirdi.

O, bu faciəni uzun müddət qəbul edə bilmədi. Günləri kədərli keçirdi. Faciədən

sonra həftələrlə Ronaldinyo bəzən məktəbə getmək istəmədi. Bəzən ağlayırdı, amma niyəsini bilmirdi. Bəzən isə tək qalmaq istəmirdi.

Ən pisi, atasının artıq yanında olmadığını unutduğu anlar idi. “Bir azdan bara gedib onu çağıraram” – deyə düşünürdü. Sonra isə yadına düşür və yenidən kədərlənirdi.

Amma Ronaldinyonu həmişə ovqatını düzəldən bir şey vardı. Atasının hələ də yanında olduğunu hiss etdirən bir şey.



Futbol.

“Top ayağımın altında olanda atam da mənimlədir” – o düşünürdü.

# 2

# RONALDİNYONUN YÜKSƏLİŞİ

Juan dünyasını dəyişəndən sonra Assis atasının məsuliyyətlərini üzərinə götürmək üçün əlindən gələni etdi. O, “Qremio”da futbol oynayaraq Ronaldinyoya və ailəyə baxırdı.

Assis Ronaldinyonun qəhrəmanına çevrildi. O da böyük qardaşı kimi futbol oynamaq istəyirdi. Onlar “Qremio”ya birlikdə gedirdilər – Assis əsas komandada

oynayır, Ronaldinyo isə gənclər komandasında məşq edirdi. Ronaldinyo superulduz qardaşı Assis ilə yanaşı addımlayanda ürəyi fəxr ilə döyünürdü. “Öz idolumla eyni otaqda qalacam” – deyə düşünürdü.

Assis bildiyi hər şeyi kiçik qardaşına öyrədirdi. O, “Qremio”da futbol oynamadığı vaxtlarda Ronaldinyo ilə məşq edirdi. Bu, Ronaldinyonun ən sevdiyi məşğuliyyət idi. Ayaqlarının altında top olduqda özünü təhlükəsiz və azad hiss edirdi. Ronaldinyo hər yerdə futbol oynayırdı.



O, Assis ilə futbol oynayırdı. Küçədə futbol oynayırdı. Parkda futbol oynayırdı. Hamı yorulanda isə itləri Bombom ilə oynayırdı. Ronaldinyoya driblinq etməyi

təkmilləşdirməyə kömək etmək Bombomun çox xoşuna gəlirdi!

Topa nəzarət bacarıqları, qapalı məkanlarda və sərt bir meydançada oynanan futzal oyunu ilə məşğul olmağa başlayandan daha da inkişaf etdi. Bu oyun qapalı məkanlarda beşnəfərlik futbol oyununa bənzəyir və dünyanın bəzi ölkələrində inanılmaz dərəcədə məşhurlaşıb.

Ronaldinyonun dostunun atası bir futzal komandasının məşqçisi idi. “Sən bu uşağı görməlisən. O möhtəşəmdir” – oğlan atasına Ronaldinyo haqqında danışarkən dedi.

İlk futzal oyununa Ronaldinyo ehtiyat skamyasında başladı. Sonra məşqçi, axır ki, dedi: “Ronaldinyo, oyuna sən girirsən!”